# CULTURAL SCIENCES

## AZERBAIJANI MUSIC IN CINEMA

**Kardashbekova N.**
*The Republic of Azerbaijan*
*NSU,Piano Faculty*

## AZƏRBAYCAN KİNO MUSİQİSİ

**Qardaşbəyova N.**
*NDU, Fortepiano kafedrası*
https://doi.org/10.5281/zenodo.10008591

**Abstract**

The path of cinema is difficult and complicated. Music in the cinema has never suddenly taken such a big and responsible position as it does now. In the early days of cinematography, the application of film music played a role. The first silent films were shown accompanied by music, and the leading role in the accompaniment was mainly played by the piano instrument. This required great skill from the performer. All the changes in the dramaturgical line of the movie depended on the skill of the pianist. Among the famous composers of Azerbaijan - T. Guliyev, R. Hajiyev and others. had a connection with the cinema and worked directly in the cinema first as a performer and then as a composer

**Xülasə**

Kinonun keçdiyi yol çətin və mürəkkəbdir. Musiqi kinoda heç də birdən-birə indiki qədər böyük və məsul mövqe tutmamışdır. Kino sənətinin ilk çağlarında kino musiqisi tətbiqi rol oynayırdı. Ilk səssiz kinolar musiqinin müşayiəti ilə nümayiş olunurdu və müşayiətdə aparıcı funksiya əsasən fortepiano alətinin üzərinə düşürdü. Bu isə ifaçıdan böyük məharət tələb edirdi. Kinonun dramaturji xəttində cərəyan edən bütün dəyişikliklər pianoçunun ifa məharətindən asılı idi. Azərbaycanın məşhur bəstəkarlarından–T.Quliyevin, R.Hacıyevin və b. kino ilə əlaqəsi olmuş və bilavasitə əvvəl ifaçı, sonra isə bəstəkar kimi kinoda fəaliyyət göstərmişlər

**Keywords**: Azerbaijani Musicians, Azerbaijani Composers, Azerbaijani Musical Art, Azerbaijani Pianists, Azerbaijan Compositional School

**Açar sözlər:** Azərbaycan musiqiçiləri, Azərbaycan bəstəkarları, Azərbaycan musiqi sənəti, Azərbaycan pianoçuları, Azərbaycan bəstəkarlıq məktəbi

Dünya incəsənətinin elə bir sahəsi yoxdur ki, musiqi onunla sıx əlaqədə olmasın. Rəqs sənəti və memarlıq, dram və opera teatrı qırılmaz olaraq musiqi ilə bağlıdır. Bu əməkdaşlıq hələ keçmiş əsrlərdə bədii yaradıcılığın yeni janrlarının cilalanmasına, bəşər mədəniyyətinin xəzinəsinə daxil olan dahiyanə əsərlərin yaranmasına səbəb olmuşdur.

Məsələn, XVI əsrin axırlarında, XVII əsrin əvvəlində musiqinin poeziya və teatr ilə sintezi opera janrının, sonra isə baletin yaranmasına gətirib çıxardı. Musiqi sənətinin poeziya, rəngkarlıq və heykəltəraşlıq ilə "əməkdaşlğı»proqramlı instrumental musiqi janrının inkişafına kömək etmişdir. Bədii yaradıcılığın ən mühüm janrları olan mahnı, romans, oratoriya, kantata musiqinin söz ilə sıx əlaqəsi əsasında yaranmış və inkişaf etmişdir. Kino sənəti ilə dərin qarşılıqlı əlaqədə və sintezdə yeni janr-kino musiqisi meydana gəlmişdir.

Kinematoqrafiyada müxtəlif sənətlərin sintezi – həyat prosesinin ahəngdar təsvirinə yönəlmiş sintez dünya incəsənətinin qızıl fonduna daxil olan xüsusi musiqili tamaşa obrazlarının yaranmasına gətirib çıxarmışdır.

Kinonun keçdiyi yol çətin və mürəkkəbdir. Musiqi kinoda heç də birdən-birə indiki qədər böyük və məsul mövqe tutmamışdır. Kino sənətinin ilk çağlarında kino musiqisi tətbiqi rol oynayırdı. Ilk səssiz kinolar musiqinin müşayiəti ilə nümayiş olunurdu və müşayiətdə aparıcı funksiya əsasən fortepiano alətinin üzərinə düşürdü. Bu isə ifaçıdan böyük məharət tələb edirdi. Kinonun dramaturji xəttində cərəyan edən bütün dəyişikliklər pianoçunun ifa məharətindən asılı idi. Azərbaycanın məşhur bəstəkarlarından–T.Quliyevin, R.Hacıyevin və b. kino ilə əlaqəsi olmuş və bilavasitə əvvəl ifaçı, sonra isə bəstəkar kimi kinoda fəaliyyət göstərmişlər.

Hazırkı dövrdə musiqi - mürəkkəb, sintetik incəsənət növü hesab edilən kinonun ən mühüm komponentinə çevrilmişdir.

Kinoda musiqi amili bədii məzmunun ideya və obrazının açılmasında ən mühüm elementlərdən biri olmuşdur. Kino musiqisində mahnı janrı özünəməxsus yer tutur. Ilk səssiz kinolarda müşayiət məhz fortepianoda ifa vasitəsi ilə tamaşaçılara təqdim edilmişdir. Kinematoqrafik təsvirin güclü amili olan musiqi filmdə mühüm dramatik funksiya yerinə yetirir.

Azərbaycan professional musiqisinin lad-funksional sisteminin xüsusiyyətləri ladın semantikası ilə sıx bağlıdır. Lad, ladintonasiya musiqi dilinin hər hansı digər elementindən daha çox musiqidə milliliyi xarakterizə edir. Semantikanın genezisi emosional təsi-

rin güçlü vasitəsi kimi intonasiya başlanğıcının imkanlarında və əhəmiyyətindədir.Semantik səviyyəni ümumiləşdirən melodik tiplər, intonasiya formulları səs yüksəkliyi relyefinin zərif differensiyasıhesabına Azərbaycan bəstəkarlarının əsərlərində təkrarsız ifadəli effekt qazanılır.[ 1]

Kino musiqisi filmin inkişafında vacib stimul kimi dramaturgiyanın prioritet mərhələlərini müəyyənləşdirir. Bu mənada qeyd edək ki, melodik üslubun inkişafında tanınan məna vahidi xassəsi qazanan ictimai şüurda ayrı-ayrı dönmələrdə seçilən və möhkəmlənən musiqili məğzlərin tipikləşməsi, ümumiləşməsi, yığılması imkanı kimi prinsipial xasiyyət var. Belə seçilən, yığılan, ümumiləşən, tipikləşən intonasiya işarələrinə ilk növbədə janr və üslub əlamətləri aiddir. [ 2]

Müasir kino musiqisi tətbiqi funksiyanın çərçivəsindən çox-çox kənara çıxır. Bu mürəkkəb sənətlə sintezdə olan musiqi özü də yeni kinematoqrafik cizgilərlə zənginləşmiş, onun ifadə imkanları genişlənmişdir. Həmin əsərlərin bədii obrazları, musiqi dili daha konkret, geniş demokratik şəkil alır, xalqa müraciət edir. Bu isə imkan verir ki, kino sənətinin prinsipləri əsasında formaca sanballı və sintez etibarı ilə təsirli simfonik konsepsiyalar yaratsınlar.

Kino musiqisinin öz spesifik qanunları və xüsusiyyətləri vardır. Kino bəstəkarı sadəcə olaraq, ekranda baş verən hadisələrə musiqi illüstrasiyaları deyil, filmin əsas dramaturgiyası ilə dərindən bağlı olan musiqi yazır. Kino filminin əsasını həmişə həyatın bir parçası təşkil edir, burada hadisələr bir yerdə durmayıb inkişaf edir, qəhrəmanlar düşünür və fəaliyyət göstərir, vaxt isə yerində qalmır. Romanda bütün bu hərəkəti izləmək, ən kiçik dəyişikliklər haqqında, insan əhval-ruhiyyəsinin incəlikləri haqqında danışmaq olar. Kino isə öz spesifikasına görə, vaxt sarıdan xeyli məhdudlaşdırılmışdır. Buna görə də ekranda əsasən qəhrəmanların xarakterinin başlıca xüsusiyyətləri, mühüm həyat hadisələri göstərilir, musiqi isə bunları tamamlamalı və başa çatdırmalıdır. Söz ilə təsvir edilə bilməyən, ekranda göstərilə bilməyən insani hisslər, fikirlər musiqi dili ilə açılır.

Musiqi məhz ona görə dərindir ki, o, hadisələrin emosional mahiyyətinə nüfuz edir, onu əsas götürür. Poeziya, ədəbi ustalıq, söz hisslərin əsl dərinliyini əhatə edə bilmədikdə musiqi köməyə gəlir.

Musiqi qəhrəmanların psixoloji xüsusiyyətlərini tamamlayıb dərinləşdirir, tamaşa epizodlarını xüsusi bir ifadə, parlaq və gözəl səs obrazları ilə zənginləşdirir.

Filmdə musiqi böyük fəlsəfi ümumiləşdirmələrə qadirdir. O, bir növ, filmin dramaturgiyası kimi eyni dramaturji prinsiplər əsasında qurulan simfoniyadır. Həmin simfoniyanın mövzuları isə ekran «simfoniyasına»uyğun olaraq, inkişaf edən və zənginləşən filmin əsas obrazlarından və ideya motivlərindən ibarətdir. Bu zaman nəzərə almaq lazımdır ki, simfonik partiyanın quruluşu burada kinomontajın tələblərinə və ayrı-ayrı epizodların dürüst xronometrajına tabedir. Kinematoqrafiya əsərində musiqi-tematik materialın «yığcamlığı», «lakonizmi», özünəməxsus xüsusiyyəti, «tezis xarakteri»bununla əlaqədardır.

Kino musiqisi yaradıcılığın mürəkkəb bir sahəsidir. O bəstəkardan, ən müxtəlif forma və janrlara professional səviyyədə və ustalıqla bələd olmağı və məntiqi dramaturji təfəkkür tələb edir. Ədəbiyyatda olduğu kimi, musiqidə də qısa və yığcam yazmaq olduqca çətindir. Əbəs deyildir ki, görkəmli sovet bəstəkarı Dmitri Şostakoviç «kinonu bəstəkar üçün məktəb»adlandırır. Bu məktəb bəstəkarda lakonizm, musiqi materialına qənaət hissi tərbiyələndirir.

Kino filmində bütöv və ardıcıl kompozisiya yaratmaq üçün musiqi-tematik material son dərəcə aydın və lakonik olmalıdır. Melosun rolu xüsusilə böyükdür. Kino musiqisində melodiya-təsvir edilən obrazların xarakteristikası üçün başlıca vasitədir. Məlumdur ki, melodiya filmin musiqi dramaturgiyasında çox mühüm rol oynayır. Aydın melodiyanı tamaşaçı yaxşı qavrayır, onun xarakterini hiss edir və istər-istəməz həmin melodiyanın inkişaf məntiqinə tabe olur. Forma etibarı ilə bitkin mahnıların melodikası xüsusi qeyd edilməli. Bu melodiya filmin musiqisində həm janr kimi, həm də kino musiqisinin simfonik inkişafının əsasını təşkil edən "tezis»kimi istifadə olunur.

Kinematoqrafiya mahnı janrının inkişaf tarixində böyük rol oynamışdır. I.I.Dunayevski yazır: "Bu böyük və kütləvi incəsənətdir. Həmin incəsənət nəinki mahnı ilə yanaşı addımlamış, həm də onu doğmuşdur".

Kinematoqrafiya tarixindən bir çox misallar göstərmək mümkündür ki, yalnız film üçün yazılmış musiqi kinoteatrın hüdudlarını aşaraq, şöhrət qazanmış və milyon-milyon dinləyici tərəfindən sevilmişdir. "Qızmar günəş altında», "Bəxtiyar», "Telefonçu qız»filmlərinə T.Quliyevin, «Bir məhəlləli iki oğlan»filminə Q.Qarayevin, Yeddi ogul istərəm filminə Xəyyam Mirzəzadənin, Şərikli çörək filminə Vasif Adıgözəlovun yazdıqları gözəl musiqilər kimə məlum deyildir.

Azərbaycan kinosunun gözəl mahnı ənənələrinin T.Quliyevin yaradıcılığında böyük inkişaf dövrü keçirdiyindən də danışmaq lazımdır.

T.Quliyev milli kino musiqisinin ən görkəmli nümayəndələrindən biri sayılır. Azərbaycan kinematoqrafiyasında mahnı-film musiqisinin meydana gəlməsi onun adı ilə bağlıdır. T.Quliyevin musiqisi səslənən filmlərdə musiqi ədəbi mətn və kadr təsviri ilə bir vəhdətdə kino əsərinin ümumi dramaturgiyasının eynihüquqlu komponentlərindən biri sayılır.

Azərbaycan bəstəkarlarının kinolara yazdığı mahnı və musiqilər hələ də məşhurdur, hələ də dillər əzbəridir. 30-cu illərin əvvəllərindən başlayaraq bəzi səsli sənədli filmlərə musiqilər bəstələnməyə başlandı. 1936-cı ildə tamamlanan "Almaz«kinofilmi ilə Azərbaycan bədii kinosunda həm səsli kinonun, həm də Azərbaycan professional kino musiqisinin əsası qoyuldu. Filmin musiqisini maestro Niyazi və Zülfüqar Hacıbəyov öz öhdəsinə götürdü. Burada obrazlar səssiz olsa da bütün film hər iki bəstəkarın bəstələdiyi gözəl musiqilərlə müşayiət olunur.

Müharibədən sonra 50-ci illərdə kino musiqisinin inkişafında Tofiq Quliyev, Rauf Hacıyev, Qara Qarayev kimi bəstəkarların xüsusi əməyi oldu. 60-70-ci illərdə isə gənc bəstəkarlardan Xəyyam Mirzəzadə, Arif Məlikov, Fərəc Qarayev, Vasif Adıgözəlov, Aqşin Əlizadə və digərləri kinomuza töhfə gətirmişlər.

Həmçinin bu illər Azərbaycan Kino musiqisinin ən uğurlu illəri hesab edilir. Bu məqamda Emin Sabitoğlu və Polad Bülbüloğlunun adlarını xüsusi qeyd etmək lazımdır. 80-90-cı illərə nəzər salsaq titrlərdə Müslüm Maqomayev, Cavanşir Quliyev, Ramiz Mirişli, Rafiq Babayev, Eldar Mansurovun adlarını tez-tez görmək mümkündür.

**Ədəbiyyat:**

1. Багирова Н. О семантической роли мелодического каданса в творчестве Уз. Гаджибекова. Проблемы музыкальной науки Азербайджана.-Б.:Элм,1997
2. Холопов В.Н.Музыка как вид искусства. М.,1990,ч.1.